**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin Təlim-Tədris Mərkəzinin yaradılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Azərbaycan Respublikasında hüquqi islahatların həyata keçirilməsi, məhkəmələrin, islah-əmək müəssisələrinin və istintaq təcridxanalarının işinin yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 oktyabr tarixli, 194 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin Təlim-Tədris Mərkəzi yaradılsın.

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin Təlim-Tədris Mərkəzinin Əsasnaməsi və strukturu təsdiq edilsin (əlavə olunur).[1]

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinə Təlim-Tədris Mərkəzinin işçi heyətinin ştat vahidlərini və tarif vəzifə maaşlarını Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin təsdiq edilmiş ştat sayı dairəsində 2000-ci il üçün təsdiq edilmiş büdcə vəsaiti hesabına müəyyən etsinlər.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

**Bakı şəhəri, 6 sentyabr 2000-ci il**

**№ 162**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 sentyabr, № 9.- S. 4116.**